# Ümumtəhsil məktəblərinin X-XI siniflərində “Azərbaycan tarixi” dərslərində şagirdlərdə idraki fəallığının formalaşdırılmasının mahiyyəti

**Hikmət İsmayıl oğlu Bəxtiyarov**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** hikmet.bextiyarov.2000@gmail.com

**Rəyçilər:** t.ü.f.d., dos. S.X. Məmmədova,
p.ü.f.d. D.M. Musayev

**Açar sözlər:** fəallaşdırma, idrak prosesi, müəllim, şagird, tarixin tədrisi, qavrayış, təfəkkür
**Ключевые слова:** активизация, познавательный процесс, учитель, учащиеся, преподавание истории, восприятие, мышление
**Key words:** activation, cognitive process, teacher, student, history teaching, perception, thinking

Müasir dövrdə təhsil müəssisələrinin qarşısında duran təhsil və inkişaf vəzifələrinin həllindən vacib problem X-XI siniflərdə təhsilalanların idrak fəaliyyətinin fəallaşdırılmasıdır. Bütün dövrlərdə təcrübəli müəllimlər bu inkişafın yollarını axtarmışlar. Jan. Piaje yazırdı ki, şagirdlərə öyrənməkdə, öz fikrini ifadə etməkdə sərbəstlik vermək vacibdir. J. Piaje şagirdlərin bilikləri praktikada tətbiq etməyinin tərəfdarı idi (1, s. 70). Onun fikrincə, uşaqlara azadlıq verilməlidir. J. Piajenin nəzəriyyəsinə görə fəal öyrənmə idraki bir prosesdir. O, qeyd edirdi ki, öyrənmə idrak prosesi olub, mənimsəmə (assimilyasiya), uyğunlaşdırma (akkomodasiya) və nizamlamadan (ekvilibrasiya) ibarətdir (1, s. 71). J. Piajenin fikirlərini Cerom Bruner inkişaf etdirmişdir. C. Bruner isə tam əks mövqedən çıxış edərək yazmışdır ki, şagirdlər biliyi müəllimin rəhbərliyi altında mənimsəməlidir. C.Bruner mövzuların, konsepsiyaların şagirdlərin idrak səviyyəsinə uyğun olmasını və onların yeni bilikləri köhnə biliklərlə müqayisə edərək, sistemli şəkildə öyrənməsinə tərəfdar olmuşdur. O, ilk dəfə olaraq kəşf etməklə öyrənmə texnikasını irəli sürmüşdür (1, s. 71). İnkişaf etməkdə olan cəmiyyətimizin müstəqil olaraq məsuliyyətli qərarlar qəbul edə biləcək, mümkün nəticələri proqnozlaşdıran, dinamikliyi, konstruktivliyi, inkişaf etmiş məsuliyyət hissi olan, əməkdaşlıq edə bilən müasir təhsilli, təşəbbüskar gənclərə böyük ehtiyacı vardır.

X-XI siniflərdə tarix dərslərində fəallaşdırma şagirdlərdə analiz və sintez, müqayisə, sistemləşdirmə və s. kimi bacarıqları formalaşdıra bilir. Bacarıqlara yiyələnən şagirdlər tədris prosesində öyrənmə vərdişlərinə də yiyələnirlər. Vərdişlər isə ümumiyyətlə, şagirdlərin sərbəst işləmək təcrübəsindən asılıdır. Müasir dövrdə sərbəst işlər dərs prosesində yalnız müəllimlərin verdiyi tapşırıqlar, metodiki göstərişlər əsasında və onların iştirakı olmadan şagirdlər tərəfindən yerinə yetirilməli olan işlər deyildir. Bu, həm də şagirdlərin müstəqil şəkildə yerinə yetirdikləri işlərdir ki, fəallaşdırma onu daha da gücləndirir (2, s. 45).

Fəallaşdırma ilə bağlı tapşırıqların yerinə yetirilməsi yalnız şagirdlərin zehni fəaliyyətini stimullaşdıran aktiv öyrənmə şəraitində mümkün olur. İnteraktiv metodlardan istifadə etməklə həyata keçirilən təlim biliklərin əldə edilməsində və öyrənmə fəaliyyətində idrak marağının formalaşmasına kömək edir. Fəallaşdırma tarix dərslərində şagirdləri tədqiqata sövq edir. Tədqiqat işləri tarixin tədrisi prosesinin əsas hərəkətverici qüvvəsidir.

Təcrübə göstərir ki, X-XI siniflərdə idraki maraqların inkişafı, öyrənilən mövzuya sevgi

və əqli iş prosesinin özü şagirdlərin fəal şəkildə, müstəqil axtarış edərək yeni bilikləri "kəşf etməsinə" gətirib çıxarır. Yeni öyrənilən mövzuya marağın yaranması üçün bu mövzunu bütövlükdə və onun ayrı-ayrı hissələrini öyrənməyin zəruriliyini, əhəmiyyətini və məqsədəuyğunluğunu anlamaq lazımdır. Müəllimin yeni materialın əvvəllər əldə edilmiş biliklərlə nə qədər çox əlaqəli olduğunu, şagirdlər üçün maraqlı olduğunu xatırlaması vacibdir. Çox asan maraqlı olmur. Öyrənmək müəyyən qədər çətin, lakin mümkün olmalıdır – bu, müasir müəllimin şüarıdır. Tarixin tədrisində köhnə modeldən yeni modelə doğru sürətli bir keçid mövcuddur. G. Yalavuz hesab edir ki, köhnə model, yəni ənənəvi təlimdə təhsil çox vaxt əzbərçiliyə əsaslanırdı və öyrədici və inkişafetdirici funksiyaları həyata keçirmir, fəallaşdırma da lazımi səviyyədə deyildi (3, s. 52).

Tədrisin keyfiyyətini yüksəltmək, təhsilalanlarda dərsə maraq oyatmaq dərs prosesinin ən vacib komponentidir. Təhsil müəssisələrində tarixin tədrisi prosesi mürəkkəb və çətin bir prosesdir. Bu prosesi fəallaşdırma xeyli asanlaşdırır. Tarixin tədrisində fəallaşdırma zamanı hər iki tərəf - həm müəllim, həm də şagird məsuliyyət daşıyır. Müəllimlər yeni dərslərə hazırlaşmaqla işini bitmiş hesab etməməli, dərs zamanı şagirdlərin biliklərini nəzərə alaraq, onların idrak səviyyəsinə uyğun dərsi qurmalıdırlar. Şagirdlərin dərs prosesindəki fəaliyyəti onların daha fəal tədqiqatçı kimi inkişaf etməsinə yönəlməlidir. Hər iki tərəf tədris prosesinin inkişafetdirici funksiyasının genişlənməsinə çalışmalıdır.

Rus filosofu M.S. Kaqan şəxsiyyətin idraki fəaliyyətinin mexanizmlərini təsvir edərkən 5 əsas cəhəti ayırırdı:

1) Subyektin ixtiyari məqsədyönlü fəaliyyəti daxili motivasiya ilə əlaqəli olur. Motivasiyanın yaranması bilavasitə psixoloji fəaliyyətlə bağlıdır.

2) Fəaliyyət prosesinin motivasiyası onun konkretləşməsinə gətirib çıxarır. Yəni fəaliyyətin plan, proqram və texnologiyaları işlənməlidir.

3) Fəaliyyət strategiyası və taktikası yalnız o zaman həyata keçirilə bilər ki, onun əməliyyat bazası hazırlanmış olsun, mexanizmləri işləsin.

4) Fəaliyyət şəxsin fiziki və psixi təbiəti ilə bağlı olur. Psixikadakı xüsusi enerji bloku fəaliyyətin işini təmin etməlidir.

5) Subyektin fəaliyyətinə işin sonunda qiymət və dəyər verilməlidir. Qiymətləndirmə əks əlaqə rolunu oynayır (4, s. 175-176). Bu, baş verməzsə, fəaliyyət qənaətbəxş sayılmır və səmərəli hesab edilmir.

M.S. Kaqan həmçinin, fəaliyyətin 5 komponentini fərqləndirmişdir (4, s. 176):

1) Motivləşdirici;
2) İstiqamətverici;
3) Məzmun və əməliyyat;
4) Dəyərləndirici-iradi;
5) Qiymətləndirici.

Müasir dövrdə M.M. Əmirov, İ.H. Cəbrayılov, Z. Veysova, D. Musayev və s. alimlər öz tədqiqatlarında tarixin tədrisi prosesi zamanı fəallaşdırma məsələlərinə geniş diqqət yetirirlər. Tarix fənni cəmiyyətin tarixi, qanunauyğunluqları, faktların toplanması, analiz, sintez, ümumiləşdirilmə vasitəsilə toplanılan məlumatların sistemləşdirilməsi, hadisə və proseslərin proqnozlaşdırılmasını və s. kimi məsələləri əhatə edir. Tarix fənninin öyrənilməsində biliklərin praktik tətbiqinin səmərəliliyini artırmaq üçün fəallaşdırmadan geniş istifadə olunur. Tarix sual vermək, araşdırmaq, arqumentlər öyrənmək, fərziyyə etmək, mübahisə etmək, yaratmaq və anlamaq, izah etmək və əsaslandırmaq bacarığını artırır (5, s. 6). Buna görə tarix fənninin öyrənilməsində şagirdlərin idrak fəaliyyətinin fəallaşdırılması olduqca vacib məsələlərdən bi-

ridir. Çünki, elm və texnikanın yüksək sürətlə inkişaf etdiyi bir dövrdə irəli gedə bilən, müstəqil düşünən və stereotiplərdən azad olan bilikli insanlar cəmiyyəti irəli aparacaqlar. Müasir təhsil sistemi ümumtəhsil məktəbləri qarşısında müəyyən tələblər qoyur. Əsas məsələ dünyagörüşlü, ətrafında baş verən hadisələri düzgün təhlil etməyi bacaran şəxsiyyət, vətənini sevən əsl vətəndaş yetişdirməkdir və bu, xüsusi əhəmiyyət kəsb edir.

Apardığımız müşahidələrə əsasən, X-XI şagirdlərində şəxsiyyətin dəyişən xüsusiyyəti kimi idrak fəallığını müəyyən edirik ki, bu da şagirdin elmi bilik tələbinə, elmi bilik sisteminə yaradıcı şəkildə yiyələnməsinə dərin inamını ifadə edir və bu da fəaliyyətin məqsədinin dərk edilməsində öz təzahürünü tapır. Tədqiqatçıların problemə böyük diqqət yetirməsinə baxmayaraq, bu gün idrak fəallığının strukturunun hamılıqla qəbul edilmiş anlayışı yoxdur, göstəricilərin, idrak aktivliyinin meyarlarının ayrılmasının vahid, rahat sistemi yoxdur. Ədəbiyyatın təhlili göstərir ki, müəlliflərin idrak aktivliyinin strukturunun aşağıdakı komponentlərinin ayrılması daha çox əsaslandırılmışdır: emosional, iradəli, motivasion, məzmunlu-prosessual və sosial yönümünün komponenti.

Fəallaşdırmanın bir sıra müsbət cəhətləri vardır ki, onların sırasında müəllimlər tərəfindən dərs prosesi boyunca şagirdlərin bilik, bacarıq və vərdişlərinin inkişaf etdirilməsi və onları düzgün istiqamətləndirilməsinə şərait yaradılmasıdır [6, s. 77]. Şagirdlərin aktiv idrak fəaliyyətini stimullaşdırmaq üçün onlarda fənnə davamlı maraq formalaşdırmaq lazımdır. İdraki maraq biliklərin mənimsənilməsi prosesinə yönəlməlidir. Bu, insanların ətraf aləmə, dünyaya münasibətində özünü göstərir. Nəticədə maraqlar bir insanın ətrafdakı reallıqla əlaqəsini müəyyənləşdirir.

X-XI siniflərdə idraki marağın inkişaf səviyyəsi sosial, mənəvi, intellektual amillərdən asılıdır. Bir fərdin idraki maraqlarının inkişafı bir neçə mərhələdən keçir: bu, seçmə xarakteri daşıyan sadə maraqdan, gözlənilməzliklə (sürprizlə) xarakterizə olunan maraqdan, öyrənmə sevinci və öyrənilən mövzunun nəzəri əsaslarını bilmək üçün səy göstərməkdən ibarətdir.

Fəallaşdırma prosesi şagirdlərin idrak fəaliyyətini tənzimləməlidir. Tarixin tədrisi zamanı şagirdlərdə idrak fəallığının artması bilavasitə təhsilin məzmunu ilə bağlı olmalıdır. Müasir dövrdə dərslərdə interaktiv təlim metodlarından istifadə olunması şagirdlərin ictimai, sosial və siyasi həyatı düzgün qiymətləndirməsinə imkan yaradır. Tarix dərslərində keçirilən mövzuları şagirdlər yalnız mənimsəməklə kifayətlənməməlidir, bu mövzular təhlil edilməlidir ki, şagirdlərin bilikləri inkişaf edərək təkmilləşsin.

Problemin xüsusi əhəmiyyətini vurğulayan rus alimi T. Şamova bu barədə belə yazır: "Yaradıcı və dəyişdirici fəaliyyət yalnız tədris materialını qavramağa və yadda saxlamağa deyil, həm də şagirdlərin özlərinin idrak fəaliyyətinə münasibətlərini formalaşdırmağa yönəlməlidir" (6, s. 10). Lakin müasir şəraitdə yalnız ənənəvi tədris üsullarından istifadə etməklə bu mürəkkəb problemi həll etmək mümkün deyildir. Hazırda təhsil prosesinə yanaşmanı keyfiyyətcə dəyişdirməyə imkan verən alternativ təhsil texnologiyaları yaradılmışdır. Müasir pedaqogika getdikcə uşağı öyrənmə fəaliyyətinin subyekti, öz müqəddəratını təyin etmək və özünü həyata keçirməyə çalışan bir insan kimi tərbiyə etməyə xidmət edir. Fəal öyrənməni tədqiq edən alimlər dərs zamanı öyrənmənin təkrar və yaddaşa əsaslanan forması əvəzinə analiz, sintez, müqayisə və s. formasını daha üstün tutmuşlar. Təlimin bu forması yüksək idraki təfəkkürə əsaslanır və dünyada qiymətləndirilir.

Fəallaşdırma yeni bir üsul deyil, bu, ənənəvi təlimdə də var idi və şagirdlərin idrak fəallığının artmasına, dərsə marağın yaranmasına xidmət edirdi. Müasir dövrdə fəal öyrənmə şagirddə danışma, dinləmə, düşünmə imkanları yaratmaqla yanaşı, öyrəndiyi bilik bacarıq və vərdişləri həyatda müstəqil, yaradıcı şəkildə tətbiq etməyi də öyrədir. Müəllimlər tarixin tədri-

si prosesində fəallaşdırma apardığı vaxt mövzuları şagirdlərin maraq dairəsinə uyğunlaşdırmalı, öyrədici mühiti təşkil etməli, mövzu ilə bağlı düzgün üsul və vasitələr seçib tətbiq etməlidir.

X-XI siniflərdə tarix dərslərində fəallaşdırma aparan zaman müəllim əyani vasitələrdən də istifadə etməlidir, çünki bu vasitələr tarixi zamanı və məkanı müəyyən etməkdə şagirdlərin inkişafına yardım edir, mövzuya maraq oyadır, onların fikrini cəmləşdirir, dərs canlı olur, öyrənmə həvəsi artır, onlar həm nəzəri, həm də praktik biliyə yiyələnir və tədris zənginləşir.

Dərsdə iştirak edən şagirdlərin hamısı eyni olmurlar. Hər şagird fərqlidir və dərs prosesində qazandığı biliklər də fərqlidir. Onlara fərdi yanaşma ön plana keçməlidir. Müəllimlər öyrətmək üçün bir çox strategiyadan istifadə etməlidirlər. Fəallaşdırma zamanı mövzuya uyğun üsul və vasitələrdən istifadə etməklə müəllim şagirdin diqqətini düzgün idarə etməli və mövzunu diqqət mərkəzində saxlamalıdır. 45 dəqiqəlik dərsdə bu, olduqca çətin olur. Məhz buna görə də dərs şagirdin maraq dairəsinə uyğun qurulmalıdır. Müəllim lazımi qədər fəallaşdırma aparmalı, qrup işi təşkil etməlidir. Tarixin tədrisində fəallaşdırma zamanı qrup işinin böyük rolu vardır. Qrup işi əməkdaşlıq şəraitində aparılır və şagirdin idrak fəallığının artmasına müsbət təsir göstərir. Bu zaman şagirdlər bir yerdə çalışmaq, ünsiyyət yaratmaq kimi bacarıqlara yiyələnirlər. Şagirdlər problemi həll etmək, fikir mübadiləsi aparmaq, mühakimə yürütmək, müqayisə etmək bacarıqları, öz fikrini söyləmək, digərinin fikrinə hörmətlə yanaşmaq, yoldaşlarının işini düzgün qiymətləndirmək kimi bacarıqlar əldə edirlər. Beləliklə, tarixin tədrisində şagirdlər fəallaşdırma zamanı problemin həllinə yönəlir və onlarda tədqiqatçılıq qabiliyyəti inkişaf edir.

**Məqalənin aktuallığı.** X-XI siniflərdə tarixin tədrisində şagirdlərin öyrənmə fəaliyyətinin təşkili başlıca məsələdir. Bu vaxt keyfiyyətin və səmərəliliyin artırılması üçün fəallaşdırmadan istifadə şagirdləri fəal öyrənməyə istiqamətləndirir ki, bu da tədris prosesinin keyfiyyətinin artırılmasına gətirib çıxarır. Müasir dövrdə şəxsiyyətyönlü tədris prosesini həyata keçirmək olduqca vacibdir. Şagirdlərin müstəqil öyrənməyə yönəldilməsi, onları yaradıcı, inkişafetdirici fəaliyyətə alışdırmaq müasir təhsildə qarşıya qoyulan əsas vəzifələrdən biridir. Bunların vəhdət şəklində fəallaşdırma vasitəsilə tətbiqi tədris prosesinin əsasını təşkil edir. Bu da tarixin tədrisində fəallaşdırmadan səmərəli istifadəni aktual edir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə X-XI siniflərdə tarixin tədrisi prosesində fəallaşdırmadan səmərəli istifadənin mahiyyəti araşdırılmış, imkan və yolları nəzərdən keçirilmiş, fəallaşdırmanın şagirdlərin idrak fəaliyyətinin formalaşdırılmasına, elmi dünyagörüşünə, ümumi inkişafına təsiri fənn kurikulumları baxımından kompleks şəkildə tədqiq edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə təklif olunan müddəalar – tarixin tədrisi texnologiyası fənnini tədris edən müəllimlər və novator müəllimlər üçün faydalı metodik material ola bilər.

## Ədəbiyyat

1. Müəllim hazırlığının və orta təhsilin perspektivləri (Qərb təhsil sisteminin təcrübəsi əsasında): Müəllimlər üçün vəsait. Bakı: Adiloğlu, 2005, 474 s.

2. Mustafa Dolmaz, Remzi Kılıç. Sosyal Bilgiler Dersi Tarih Konularının Öğretiminde Aktif Öğrenme ve Öğretmen Görüşleri Doğrultusunda Değerlendirilmesi. International Journal of Field Education, 2017, № 3, s. 42-59.

3. Yalavuz G. Türkiye'de Tarih Öğretiminde Aktif Yöntemin Uygulanışı. (Yayımlanmamış Yüksek Lisans Tezi). Dokuz Eylül Üniversitesi Eğitim Bilimleri Enstitüsü, İzmir, 2006, s.

56-67.
4. Каган М.С. Человеческая деятельность (Опыт системного анализа). М.: Политиздат, 1974, 328 с.
5. Никол, Джон.Ремесло учителя истории / Пер. с англ. Ю.К. Бершак. Ярославль: Яросл. гос. пед. ун-т им. К.Д. Ушинского, 2001, 272 с.
6. Шамова Т.И. Активизация учения школьников. М. Педагогика, 1982, 208 с.

**Х.И. Бахтияров**

## Суть формирования познавательной активности учащихся на уроках истории Азербайджана в X-XI классах общеобразовательных школ

### Резюме

Активизация познавательной активности на уроках истории в X-XI классах побуждает учащихся к исследовательской деятельности на уроках истории. Исследования – главная движущая сила процесса преподавания истории. Активизация на уроках истории требует от учащихся анализа и обобщений, сравнения, систематизации и. т. Д. Процесс преподавания истории в учебных заведениях - сложный процесс. Активация обучения значительно облегчает этот процесс. Поэтому в статье рассматривается сущность эффективного использования активизации в преподавании истории.

**H.I. Baxtiyarov**

## The essence of the formation of cognitive activity in students in the history lessons of Azerbaijan in X-XI grades of secondary schools

### Summary

Activation of cognitive activity in history lessons in X-XI grades encourages learners to study in history lessons. Studies are the main driving force of the process of teaching history. Activism in the lessons of history allows students to analyze and generalize, compare, systematize, etc. allows the formation of skills such as. The process of teaching history in educational institutions is a complex and difficult process. Activation greatly simplifies this process. Therefore, the article considers the essence of the effective use of activation in the teaching of history.

**Redaksiyaya daxil olub:** 01.06.2022